

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır


# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 163 (23.805)

7 sentyabr 2021-ci il, çərşənbə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Naxçıvan Şəhər İcra Hakimiyyətində müşavirə olub

*2021-2022-ci illərin payız-qış mövsümünə hazırlıq və qarşıda duran vəzifələrə bağlı Naxçıvan Şəhər İcra Hakimiyyətində keçirilən müşavirəni giriş sözü ilə İcra Hakimiyyətinin başçısı Mirsənani Seyidov açıb.*

Müşavirədə Naxçıvan Şəhər Qaz İstismarı İdarəsinin rəisi Mahmud Əbilsoy, İstilik Təsərrüfatı İdarəsinin rəisi Nəsimi Novruzov, Elektrik Şəbəkəsinin baş mühəndisi Tusi Kazımov çıxış edərək payız-qış mövsümünə hazırlığın gedişatı, görülən işlər barədə məlumat veriblər.

Naxçıvan Şəhər İcra Hakimiyyətinin başçısı Mirsənani Seyidov çıxış edərək bildirib ki, Naxçıvan şəhərində aparılan quruculuq işləri, müasir elektrik enerjisi, təbii qaz, içməli su və istilik təminatı sistemlərinin yaradılması sakinlərin rahat yaşayışının təmin edilməsində



mühüm rol oynayır. Son illər bu sahədə həyata keçirilən tədbirlər payız-qış mövsümünü problemsiz başa vurmağa imkan yaradıb. Ötən payız-qış mövsümündə şəhərdə əhalinin istilik enerjisi ilə təminatı diqqətdə saxlanılaraq 5 mərkəzi və 38 fərdi qazanxana vasitəsilə 173 yaşayış binasında 7 min 634 mənzil və 29 inzibati bina istiliklə təmin edilib. 2020-2021-ci illərin payız-qış mövsümündə 45 min 257 qiqakalori istilik enerjisi istehsal olunub. İstehsal edilmiş enerjinin 29 min 455 qiqakalorisi əhaliyə, 15 min 802-si isə müəssisə və təşkilatlara aid olub. İstifadə olunmuş 6 milyon 838 min 481 kubmetr qazın, 1 milyon 181 min 987 kilovat-saat elektrik enerjisinin, 6 min 55 kubmetr suyun dəyəri aidiyyəti müəssisə və təşkilatların hesabına köçürülüb. Naxçıvan şəhərində 2021-2022-ci illərin payız-qış mövsümünə hazırlıqla əlaqədar mərkəzləşdirilmiş və fərdi qazanxanaların fasiləsiz işləməsinin təmin olunması məqsədilə texniki baxış keçirilərək, elektrik, təbii qaz, içməli su və istilik xətləri təmir edilib.

Qeyd olunub ki, Naxçıvan Muxtar Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin Naxçıvan Şəhər İdarəsi tərəfindən Babək məhəlləsi 1, 22 və 26 nömrəli yaşayış binalarının zirzəmilərində istismara yararsız dəmir borular yenisi ilə əvəz edilib. Naxçıvan Şəhər 3 saylı Notariat Ofisi və Adil Babayev adına Naxçıvan Muxtar Respublika Uşaq Kitabxanasının binasını birləşdirən istismara yararsız magistral istilik xətlərinin plastik boru xətləri ilə əvəz edilməsi və Heydər Əliyev prospekti 26 nömrəli fərdi qazanxananın ətrafında abadlıq işləri davam etdirilir.

Bildirilib ki, əhalinin enerji təchizatının keyfiyyətinin yaxşılaşdırılması üçün də tədbirlər görülüb. Mövsümə hazırlıqla əlaqədar olaraq 10/04 kilovoltluq 16 paylayıcı güc yarımstansiyası və texniki təhlükəsizlik normalarına cavab verməyən 92 elektrik hava xətti dirəyi əsaslı təmir edilib, Qaraxanbəyli kənd inzibati ərazisində gücü 400 kilovat-amper, 6-cı məhəllədə gücü 250 kilovat-amper olan yeni yarımstansiyalar istismara verilib. Abadlıq işləri aparılan 4-cü küçədə bina tipli yarımstansiya əsaslı təmir olunub. 250 kilovat-amper gücündə güc transformatoru quraşdırılaraq istismara verilib.

Aid təşkilatlara qarşıda duran vəzifələr barədə məlumat verən Mirsənani Seyidov vurğulayıb ki, Naxçıvan Şəhər İcra Hakimiyyətinin tabeli müəssisə və təşkilatları 2021-2022-ci illərin payız-qış mövsümünə hazırlıqla bağlı keçirilən müşavirədə Ali Məclis Sədrinin qarşıya qoyduğu tapşırıqları diqqətdə saxlamalı, müvafiq tədbirlər vaxtında və qüsursuz həyata keçirilməlidir.

**Nail ƏSGƏROV**

## "Marş İrəli" – Naxçıvan start götürdü



*Ölkə gənclərində vətənpərvərlik ruhunun yüksəldilməsi, fiziki dözümlülüyün artırılması, rəqabətədavamlı və sağlam gəncliyin inkişafına xidmət edən "Marş İrəli" adlı hərbi simulyasiyalı layihənin 4-cü mövsümünə Naxçıvan ev sahibliyi edir.*

Heydər Əliyev adına Hərbi Liseydə təşkil olunan açılış mərasimi ilə layihəyə start verilib. Mərasimdə Vətən müharibəsi şəhidlərinin xatirəsi bir dəqiqəlik sükutla yad edilib, ardınca Azərbaycan Respublikasının Dövlət Himni ifa olunub.

Tədbirdə çıxış edən Naxçıvan Muxtar Respublikasının gənclər və idman naziri Ramil Hacı iştirakçıları salamlayaraq bildirib ki, Azərbaycanda uğurlu gənclər siyasəti həyata keçirilir. Əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulan dövlət-gənclər siyasəti nəticəsində indi Azərbaycan gəncliyi yüksək inkişaf mərhələsini yaşayır. Bu gün qalib ölkənin gəncləri kimi burada toplaşmağımız da məhz həmin siyasi kursun layiqli davamçısı Ali Baş Komandan, Prezident cənab İlham Əliyevin liderliyində qazanılan şanlı qələbəmizin sayəsində mümkün olub. Muxtar respublikada gənclərlə iş sahəsində həyata keçirilən tədbirlər barədə danışan nazir bu istiqamətdə daim əməli addımlar atıldığını, dövlət-gənclər siyasətinin uğurla icra olunmasına diqqət göstərildiyini deyib. Sonda iştirakçılara uğurlar arzulayan Ramil Hacı "Marş İrəli" layihəsinin qədim diyarımızda gerçəkləşən uğurlu tədbirlərdən biri olacağına inamını ifadə edib.

"Müstəqilliyin bizə qazandırdığı ən böyük töhfələrdən biri də gənc nəslin milli ruhda tərbiyəsi, hərtərəfli inkişafı üçün yaranmış mühitdir və bu mühiti ulu öndər Heydər Əliyevin həyata keçirdiyi siyasət formalaşdırıb", – deyən Naxçıvan Muxtar Respublikası Gənclər Fondunun icraçı direktoru Cəbi Quliyev çıxışında Prezident cənab İlham Əliyevin Azərbaycanın qüdrətli dövlətə çevrilməsi naminə apardığı fəaliyyətində gənclərə böyük inam bəslədiyini, gəncliyin inkişafı üçün lazımi şəraitin yaradılması istiqamətində məqsədyönlü addımlar atıldığını vurğulayıb. İştirakçılara uğurlar arzulayan Cəbi Quliyev deyib ki, Azərbaycan gəncliyi dövlət başçısının onlara xitabən vurğuladığı ***"Gənclər, mən sizə inanıram, güvənirəm!"*** çağırışından güc alacaq və tariximizin yeni şanlı səhifələrini yaradacaq.

Azərbaycan Respublikası Gənclər Fondunun Gənclər təşkilatları ilə iş şöbəsinin müdiri Faiq Məmmədov "Marş İrəli" layihəsinin bundan öncəki 3 mövsümdə olduğu kimi, Naxçıvan mərhələsinin də uğurla tamamlanacağına inandığını deyib.

"İrəli" İctimai Birliyinin sədri Şahin Rəhmanlı bildirib ki, növbəti mövsümün Naxçıvan gənclərini əhatə etməsini paytaxtla yanaşı, bölgələrimizdə də bu sahənin inkişafına təkan verəcək amil kimi qiymətləndirmək olar.

Qeyd edək ki, layihə Azərbaycan Gənclər Fondu, Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi, Naxçıvan Muxtar Respublikası Gənclər Fondu və "İrəli" İctimai Birliyinin təşkilatçılığı, Əlahiddə Ümumqoşun Ordunun dəstəyi ilə keçirilir. 5-9 sentyabr tarixlərini əhatə edəcək layihənin gündəlik proqramı tərtib olunub, düşərgə üçün əlverişli məkan seçilib. "Marş İrəli"nin konseptinə uyğun olaraq gender bərabərliyi qorunmaqla 17-25 yaş aralığında, hələ hərbi xidmət keçməmiş 100 gənc düşərgədə iştirak haqqı qazanıb. Onlardan 70-i Naxçıvan gəncidir.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

## Rabitə xətləri yenilənir



Muxtar respublikanın digər rayonları kimi, Şərur rayonunda da hər bir sahədə inkişaf tempi artır. Aparılan abadlıq və quruculuq işləri çərçivəsində əhalinin müasir rabitə xidmətləri ilə əhatə olunması istiqamətində işlər davam etdirilir. Rayonun kəndlərində sakinlərin internet xidmətləri ilə təmin olunması məqsədilə müvafiq işlər həyata keçirilir. Hazırda rayonun Dərvişlər kəndində rabitə xətlərinin yenilənməsi istiqamətində həyata keçirilən tədbirlər bu sahənin inkişafına göstərilən diqqət və qayğının əyani ifadəsidir.

Rabitə sahəsində gedən sürətli inkişaf kənd sakinlərinin müasir rabitə xidmətləri ilə əhatə olunması istiqamətində işlərin davam etdirilməsinə əsas zəmin yaradır. Yeni inşa olunacaq kənd mərkəzində Rabitə Evinin də fəaliyyət göstərməsi nəzərdə tutulur. Quruculuq işləri çərçivəsində xətt təsərrüfatında əsaslı təmir işləri aparılır, kabel-kanalizasiya qurğuları inşa edilir, hava rabitə xətləri yeraltı xətlərlə əvəz olunur. Bir sıra yerlərdə uzun müddət istismar olunan və müxtəlif səbəbdən yararsız vəziyyətə düşən taxta rabitə dirəkləri dəmir dirəklərlə əvəz olunur, müxtəlif tutumlu yararsız kabellər yeni kabellərlə dəyişdirilir, yeni abonent qutuları və paylayıcı şkaflar əlavə edilməklə rabitə xətlərində olan digər nasazlıqlar aşkar edilərək bərpa olunur.

Əhaliyə göstərilən rabitə xidmətlərinin keyfiyyətinə nəzarət edilməsi üçün mütəmadi olaraq xətt təsərrüfatının vəziyyəti yoxlanılır, müraciətlərinə uyğun olaraq sakinlərə texniki dəstək və metodik köməkliklər göstərilir.

Fiber-optik xətlərin çəkilməsi, yüksəksürətli internet şəbəkəsinin yaradılması, yeni nəsil telekommunikasiya sisteminin qurulması sakinlərin müasir rabitə xidmətlərindən yararlanmasına şərait yaradır.

***Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyinin mətbuat xidməti***

## Məşğələ keçirilib

Əlahiddə Ümumqoşun Ordunun xüsusi təyinatlı bölmələrində "Çətin dağlıq ərazilərdə taktiki fəaliyyətlər" mövzusunda nümayiş məşğələsi keçirilib.



Kiçik komandirlərin idarəetmə bacarığının artırılması, hücum edən və dəstəkləyən bölmələrlə qarşılıqlı əlaqə suallarının işlənilməsi üzrə keçirilən məşğələdə əsas diqqət 44 günlük Vətən müharibəsində qazanılan təcrübəyə və icra edilən müxtəlif atəş tapşırıqlarının həllinə yönəldilib.

Müxtəlif texniki vasitələrdən və pilotsuz uçuş aparatlarından istifadə edərək vizual müşahidə və havadan kəşfiyyat aparmaqla komandirlər tərəfindən düşmən mövqeyi qiymətləndirilir, qəbul edilmiş qərara uyğun olaraq hər bir xüsusi təyinatlıya yerinə yetirəcəyi tapşırıqlar verilir.



Xüsusi təyinatlı qrup ərazinin çətin keçilə bilən relyefindən istifadə edərək düşmənin mühəndis cəhətdən hazırlıqlı mövqeyinə koordinasiyalı irəliləmə ilə gizli şəkildə yaxınlaşır.

Qarşılıqlı fəaliyyətdə olan atəş dəstək qrupunun düşmən mövqeyinə açdığı atəşlərdən yararlanan xüsusi təyinatlılar qrupda mövcud olan silah nümunələrinin sərrast atəşi ilə düşmənin canlı qüvvəsini məhv edərək hakim yüksəkliyi ələ keçirirlər.

Hakim yüksəklikdə mövqelənən xüsusi təyinatlı qruplar düşmənin əks-hücumunu əngəlləmək və digər qruplarımızın təhlükəsiz hərəkətinə şərait yaratmaq məqsədilə tədbirlər görürlər.

**Nəriman NƏCƏFOV**

## Torpaqların su təminatı yaxşılaşdırılır

*Muxtar respublikada müasir suvarma sistemlərinin quraşdırılması və suvarma suyundan səmərəli istifadə olunmasına nəzarət həyata keçirilir, su təsərrüfatı sistemlərinin istismarının yaxşılaşdırılması diqqət mərkəzində saxlanılır.*



Əkin sahələrinin suya olan tələbatını ödəmək üçün avqust ayında bir sıra tədbirlər görülmüş, su istifadəçilərinə 28,78 milyon kubmetr su verilmiş, bunun müqabilində 24 min 202 hektar torpaq sahəsi suvarılmışdır. Ay ərzində 13,25 kilometr beton və torpaq kanal, 8,71 kilometr ara arx və 7,2 kilometr kollektor lildən təmizlənmiş, 1,3 kilometr uzunluğunda yeni suvarma boru xətti çəkilmiş, 0,87 kilometr boru xəttində isə təmir-bərpa işləri aparılmışdır. Qeyd olunan dövrdə Şərur, Babək və Sədərək rayonlarında, ümumilikdə, 136,10 hektar torpaq sahəsinin meliorativ vəziyyəti yaxşılaşdırılmışdır.

Muxtar respublikada su təminatının yaxşılaşdırılmasında subartezian quyularının və kəhrizlərin gücündən də geniş istifadə olunur. Qeyd olunan dövrdə 101 subartezian quyusunda təmir-bərpa işləri aparılmış, 2 yeni subartezian quyusu qazılmışdır. 2 kəhrizdə təmir-bərpa işləri başa çatdırılmış, 5 kəhrizdə isə işlər davam etdirilmişdir.

Avqust ayında həyata keçirilən tədbirlər sırasında əhalinin keyfiyyətli və dayanıqlı içməli su ilə təmin olunması, yaşayış məntəqələrində müasir kanalizasiya şəbəkələrinin qurulması da diqqətdə saxlanılmış, 1892 metr yeni içməli su xətti, 574 metr yeni kanalizasiya xətti çəkilmiş, 5011 metr içməli su və 200 metr kanalizasiya xəttində isə təmir-bərpa işləri aparılmışdır.

Şahbuz, Culfa və Ordubad rayonlarının kaptajlarında min metr hissədə təmir-bərpa işləri aparılmışdır.

***Naxçıvan Muxtar Respublikası Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin mətbuat xidməti***

# “Naxçıvanbank”ın Şahbuz rayonunda yeni filialı açılıb

*Sentyabrın 6-da “Naxçıvanbank” Açıq Səhmdar Cəmiyyətinin Şahbuz rayonunda yeni filialı istifadəyə verilib.*

Bu münasibətlə keçirilən tədbirdə “Naxçıvanbank” Açıq Səhmdar Cəmiyyətinin Müşahidə Şurasının sədri Əsədulla İsgəndərov çıxış edərək deyib ki, “Naxçıvanbank” ASC Azərbaycan Respublikasının ilk regional bankıdır və Mərkəzi bank tərəfindən 4 avqust 2008-ci il tarixdə verilən lisenziya əsasında 1 sentyabr 2008-ci il tarixdən fəaliyyətə başlayıb. Bank əhaliyə, sahibkarlıq subyektlərinə universal bank və maliyyə xidmətini kompleks şəkildə göstərməkdədir. Bankın Naxçıvan, Şərur, Kəngərli, Culfa, Ordubad, Babək şəhərlərində filial və şöbələri fəaliyyət göstərir. Baş idarə, 7 filial, bir şöbə, 2 valyutadəyişmə məntəqəsi, 44 bankomat, 72 ödəniş terminalı, 1021 POS-terminal və 61 mindən çox ödəniş kartı ilə müştərilərinə xidmət edən bankın cari ildə 14 mindən çox aktiv kredit müştərisi olub ki, onun 529 nəfəri Şahbuz rayonunda yaşayan əhalidir. Müştəri məmnuniyyətini, şəffaflığı və peşəkar xidməti əsas prinsip seçən





“Naxçıvanbank” ASC artıq Şahbuz rayonunda da fəaliyyətə başlayır.

Əsədulla İsgəndərov göstərilən yüksək diqqət və qayğıya görə kollektiv adından dövlətimizə minnətdarlığını bildirib, bundan sonra da əhaliyə keyfiyyətli bank xidmətləri göstərəcəklərinə söz verib.

Naxçıvan Muxtar Respublikasının Baş naziri Səbuhi Məmmədov “Naxçıvanbank” Açıq Səhmdar Cəmiyyətinin yeni filialının istifadəyə verilməsi münasibətilə kollektivi təbrik edib.

Qeyd olunub ki, “Naxçıvanbank” tərəfindən muxtar respublika sakinlərinə kənd təsərrüfatı istiqamətində, eyni zamanda iqtisadiyyatın aparıcı sahələrində kreditlər verilir. “Naxçıvanbank” ASC-nin yeni rayon filialının yaradılması sakinlərin bankın xidmətlərindən rahat şəkildə istifadəsinə imkan verəcək. Şahbuz rayon sakinlərinə bütün kredit növləri daxil olmaqla, 3 milyon manata kimi maliyyə-kredit xidməti göstərilib. Bankın filialının açılması imkan verəcək ki, burada artıq kreditlərin əhatə dairəsi də genişlənsin və vətəndaşların kredit götürməsi daha asan, əlçatan olsun.

Baş nazir bildirib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin müxtəlif dövrlərdə imzaladığı sərəncamlarla muxtar respublikada elektron ödəniş sistemlərinin inkişafı, rəqəmsal iqtisadiyyata keçidlə əlaqədar Dövlət proqramları qəbul olunub və uğurla icra edilir. Əsas məqsəd dağlıq rayonlarda, kənd yerlərində yaşayan əhali üçün elektron ödəniş sistemlərini, bank xidmətlərini daha əlçatan etməkdir. Bu gün Şahbuz rayonunda “Naxçıvanbank” ASC-nin yeni filialının yaradılması da artıq imkan verəcək ki, rayon sakinləri Naxçıvan şəhərinə getmədən “Naxçıvanbank”ın göstərdiyi bütün xidmətlərdən faydalansınlar. “Naxçıvanbank” ASC bu gün ölkə üzrə müştərilərinə ən aşağı faiz dərəcələri ilə xidmət göstərir.

Şahbuz Rayon İcra Hakimiyyətinin başçısı Rəfael Babayev bildirib ki, “Naxçıvanbank” ASC-nin Şahbuz rayon filialının istifadəyə verilməsi rayonda müxtəlif sahələrin daha da inkişaf etməsinə şərait yaradacaq. Bu isə həm bankın inkişafında, həm də rayon sakinlərinin təsərrüfatlarını genişləndirməsində əhəmiyyətli rol oynayacaq.

Binaya baxış zamanı bildirilib ki, 2 mərtəbəli binanın birinci mərtəbəsində müştəri zalı, təhlükəsizlik, əməliyyat, kassa, qiymətlilərin saxlanma və server otaqları yerləşir. İkinci mərtəbədə isə müdir, kredit, arxiv və mütəxəssis otaqları, iclas zalı, qarderob və mətbəx vardır. Filialda biznes, kənd təsərrüfatı, ailə təsərrüfatı, istehlak və ipoteka kreditlərinin verilməsi, eyni zamanda kassa əməliyyatları və pul köçürmələri kimi bütün maliyyə əməliyyatları həyata keçiriləcəkdir.

Bina istiliklə təchiz olunub, həyət abadlaşdırılıb, işıqlandırma və suvarma sistemləri çəkilib.

**Xəbərlər şöbəsi**

# *“Marş İrəli”* layihəsi uğurla reallaşır



*“Marş İrəli” layihəsinin açılış mərasiminin ardınca iştirakçılar ümummilli lider Heydər Əliyevin Naxçıvan şəhərinin baş meydanında əzəmətlə ucalan abidəsi önünə gül dəstələri düzüb, Heydər Əliyev Muzeyi ilə tanış olublar.*

Qonaqlara muzeyin ekspozisiyasında nümayiş etdirilən rəsmi sənədlər, fotoşəkillər, şəxsi əşyalar və yaradıcılıq nümunələri, həmçinin dahi şəxsiyyətin həyatı və siyasi fəaliyyəti ilə bağlı məlumatlar verilib.

Daha sonra Şəhidlər xiyabanı və Vətən müharibəsi şəhidlərinin məzarları ziyarət olunub, Azərbaycanın azadlığı və suverenliyi uğrunda həlak olan soydaşlarımızın ruhuna dualar oxunub. Nahar fasiləsindən sonra iştirakçılar Əcəmi seyrəngahında olub, ümummilli liderin burada ucaldılmış büstü ziyarət edilib, Möminə Xatın və Açıq Səma Altında Muzey Kompleksi, həmçinin Xan Sarayı Dövlət Tarix-Memarlıq Muzeyi ilə tanışlıq maraqla qarşılanıb. Axşam saatlarında tədbirin açılış konserti reallaşıb. Heydər Əliyev adına Hərbi Liseydə iştirakçılar üçün təşkil olunan əyləncəli konsert proqramı gənclərin şən əhvali-ruhiyyəsi, vətənpərvərlik mahnıları və milli musiqi nömrələri ilə yadda qalıb.

Layihənin ikinci günü səhər yeməyinin ardından iştirakçılar üçün “Əshabi-Kəhf Ziyarətgahı” Dini-Mədəni Abidə Kompleksinə ekskursiya təşkil olunub. İştirakçılara ziyarətgah haqqında zəruri məlumatlar çatdırılıb. Qeyd olunub ki, Əshabi-Kəhf mağarası təkcə ziyarətgah deyil, həm də Azərbaycanın ən qədim tarixi abidələrindən biridir.

Daha sonra layihə iştirakçıları “N” hərbi hissəyə yola düşüblər. Əlahiddə Ümumqoşun Ordunun arsenalında olan bir sıra hərbi uçuş texnikaları nümayiş etdirilib, onların taktiki-texniki xüsusiyyətləri və digər zəruri məlumatlar gənclərin diqqətinə çatdırılıb. Vətən müharibəsi zamanı düşmənə sarsılmaz zərbələr endirən “Bayraktar TB2” pilotsuz uçuş aparatı ilə tanışlıq iştirakçıların xüsusi marağına səbəb olub.




Sonra iştirakçılar layihə üçün meşə şəraitində xüsusi hazırlanmış düşərgədə məskunlaşıblar. Nahar yeməyindən sonra gənclərin Vətən müharibəsi iştirakçıları ilə görüşü təşkil olunub. Öncə şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Hərbçilərimiz döyüş xatirələrini, Ali Baş Komandan, Prezident cənab İlham Əliyevin rəhbərliyi ilə qazanılan şanlı Qələbə ilə bağlı təəssüratlarını bölüşüblər. Bildirilib ki, dövlət-xalq-ordu birliyi zəfərin qazanılmasında önəmli rola malikdir. Əlahiddə Ümumqoşun Ordunun Xüsusi Təyinatlı Qüvvələrindən ibarət heyətin haqq savaşımızda xüsusi qəhrəmanlıqları və müstəsna xidmətləri olub. Hərbçilərimiz gəncləri maraqlandıran sualları cavablandırıblar.

Günün proqramına əsasən iştirakçılara atıcı silahlar, atışın üsul və qaydaları haqqında ümumi məlumat verilib. Layihənin ikinci günü komanda quruculuğu təlimi ilə yekunlaşıb.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

# “Əsl vətənpərvərlik ruhu Vətən uğrunda mübarizədə sınağa çəkilir”

## *Ulu diyarımız və layihə haqqında təəssüratlar*



Milli-mənəvi birliyimiz, Vətən oğullarının doğma el-obaya sədaqəti, mərdliyi və mətinliyi 44 günlük şanlı Qarabağ müharibəsində özünü daha bariz şəkildə göstərdi. Torpaqlarımızın ərazi bütövlüyü uğrunda apardığımız haqq savaşında qəhrəman oğullarımız düşmənin məkrli siyasətini məhv edərək tariximizin səhifələrinə adlarını qızıl hərflərlə yazdırdı. Torpaqlarımızın düşmən işğalından azad olunması uğrunda böyük fədakarlıq göstərmiş rəşadətli ordumuzun əldə etdiyi zəfər, sözsüz ki, hər bir gəncimizə örnək olmaqla bərabər, həm onların həyat amalı, həm də onların gələcəkdə əsl vətəndaş kimi formalaşmasında böyük stimul olmalıdır. Bu mənada, dövlətimizin daim diqqətdə saxladığı gənclər siyasəti öz uğurlu nəticələrini verməkdədir. Muxtar respublikamızda təşkil edilən “Marş İrəli” adlı hərbi simulyasiya layihəsinin iştirakçılarının təəssüratları da fikirlərimizi təsdiqlədi .

“Bu yurdun insanları çox xoşbəxtdir”, – deyən Azərbaycan Tibb Universitetinin tələbəsi ***Aysel İsmixanova*** qeyd edir ki, Naxçıvanda olduğum bu iki gün ərzində heç bir yadlıq, özgəlik hiss etmirəm. İnsanların səmimiyyəti, qonaqpərvərliyi o qədər doğma və əzizdir ki, hətta buradan qayıdacağımı düşünəndə təəssüflənirəm də. Yəqin ki, hər kəs bir yerə səyahət edəndə, mənim kimi o ünvanın insanları haqqında az da olsa, məlumat alır. Növbəti “Marş irəli” layihəsinin bu qədim diyarda keçiriləcəyini eşitdikdə çox sevindim. Çünki Azərbaycanın əzəli-əbədi, ayrılmaz bir parçası olan bu torpağa ilk dəfə idi gəlirdim. Universitetdə mənə çox



yaxın olan qrup yoldaşım naxçıvanlı olduğu üçün bu xəbəri alan kimi ilk dəfə onunla bölüşdüm. O da çox sevindi və yurdunun insanlarının qonaqpərvərliyi, milli mətbəxinin zənginliyi haqqında mənə məlumat verdi. Buraya çatdığım anda hiss etmişdim eşitdiklərimlə gördüklərimin üst-üstə düşəcəyini. İnanırsınızmı? Bu şəhərin gözoxşayan gözəlliyi, ən başda da yolların, küçələrin, park-xiyabanların səliqə-sahmanı insanı özünə valeh edir. Ekskursiya çərçivəsində biz Əshabi-Kəhf dini-mədəni abidə kompleksində olduq. Naxçıvanlı yoldaşlarımız duaların hasil olunduğu bu müqəddəs məkan haqqında bizə məlumat verdi. Öyrəndik ki, bura yalnız dini abidə kompleksi deyil, həm də Naxçıvanın çoxəsrlik tarixinin bariz nümunəsidir. Bununla yanaşı, 44 günlük Vətən müharibəsi iştirakçıları ilə təşkil edilən görüş də çox maraqlı keçdi. Qazilərimizin biz gənclərə göstərdiyi səmimiyyət, verdikləri öyüd-nəsihət, müharibədə yaşadıqları və bizimlə bölüşdükləri acı xatirələr, həqiqətən, təqdirəlayiq bir addımdır. Mən inanıram ki, bu cür tədbirlərin davamına bütün Azərbaycan gəncləri tezliklə Qarabağda şahid olacaq, azad bir dövlətin vətəndaşları kimi böyük bir sevinclə də iştirak edəcəklər.



Bakı Dövlət Universitetinin tələbəsi ***Ruslan Mustafayev*** deyir ki, hərbi vətənpərvərlik ruhunun gənc nəslə aşılanması üçün təşkil edilən belə silsilə tədbirlər bizlərdə böyük marağa səbəb olur. Bəlkə də, mənim bu fikrimlə bir çoxları razılaşar ki, qazandığımız Zəfər yalnız ordumuzda yox, xalqımızda, ən başda da biz gənclərdə böyük ruh yüksəkliyinə səbəb oldu. Bu mənada, dördüncü dəfədir, ölkəmizdə təşkil olunan “Marş İrəli” layihəsinin bu dəfə Naxçıvanda keçirilməsinin həm strateji, həm də mənəvi əhəmiyyəti var. Mənəvi əhəmiyyəti ondadır ki, uzun illərdir, cismani surətdə ölkənin ərazi bütövlüyündən ayrı düşən Naxçıvan Muxtar Respublikasının bütün sahələrində inkişaf çox yüksək səviyyədədir. Şəhərin gözoxşayan müasir



mənzərəsi və səliqə-sahmanı buna ən gözəl nümunədir. Strateji əhəmiyyətinə gəldikdə isə mənfur düşmənimiz olan ermənilərə gözdağı kimi günü-gündən gülüstana çevrilən bu diyarın qeyrətli insanlarının bir ovuc torpağını qorumaq, onu düşmənə verməmək uğrunda apardığı mübarizədə tarixboyu qazandığı qələbə, İkinci Qarabağ müharibəsində rəşadətli ordumuzun naxçıvanlı igidlərinin göstərdiyi şücaət bunun əyani sübutudur. Hər bir vətəndaş kimi bu qədim diyarın uğurlu inkişafını gördükcə insan daha da fərəhlənir, sevinir. Bu cür azad, müstəqil ölkədə yaşadığı üçün şükür edir. Yol boyunca uzanan sıra dağlar, dağların qoynunda hər cür şəraitlə təhciz olunmuş yaşayış məntəqələri, kəndlər, yaraşıqlı məktəb binaları və bunun kimi neçə-neçə gözəl mənzərələr insanın ruhunu oxşayır. Bu füsunkar təbiət möcüzəsinin hər daşından, qayasından şahidi olduğu tarixin izləri görünür, Memar Əcəminin, Kalbalı xan Kəngərlinin, Cəmşid Naxçıvanskinin fəxarət dolu həyat izləri duyulur. Naxçıvan bu yurdun insanlarına Tanrının ən gözəl nemətidir.

**✍ Məcid RƏŞADƏTOĞLU**

## Naxçıvan Dövlət Universiteti dünyanın ən yaxşı universitetləri sırasındadır



Dünyanın ən yaxşı universitetləri sırasında Naxçıvan Dövlət Universiteti də yer alıb. Azərbaycanın 5 ali təhsil müəssisəsinin daxil olduğu siyahıda Bakı Dövlət Universiteti 2112 universitet içərisində 1247-ci yeri tutub. Siyahıda, həmçinin Azərbaycan Dövlət İqtisad Universiteti, Xəzər Universiteti və Qərbi Kaspi Universiteti də var.

Qeyd edək ki, "Times Higher Education" (THE World University Rankings 2022) versiyası üzrə aparılan reytinq üzrə Oksford Universiteti növbəti dəfə dünyanın 200 ən yaxşı universiteti siyahısının lideri olub. Məlumat üçün onu da bildirək ki, universitetlərin ilk beşliyinə, həmçinin Kaliforniya Texnologiya İnstitutu(ABŞ), Harvard Universiteti (ABŞ), Stenford Universiteti (ABŞ) və Kembric Universiteti (Böyük Britaniya) da daxil olub. Növbəti pillələri Massaçusets Texnologiya İnstitutu (ABŞ), Priston Universiteti (ABŞ), Berkli Kaliforniya Universiteti (ABŞ), Yel Universiteti (ABŞ) tutub. İlk onluğu isə Çikaqo Universiteti tamamlayıb.

***Naxçıvan Dövlət Universitetinin Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsi***

## Mən Şuşanı gülən gördüm və ya yuxu kimi üç gün

*Mobil telefonuma zəng gəlir... Tanış nömrə deyil. Açıram... Səs də tanış gəlmir. Danışığımız çox qısa olur. Salamlaşma, tanışlıq, zəngin məqsədi, sağollaşma – hamısı birlikdə heç bir dəqiqə də çəkmir. Heydər Əliyev Fondu tərəfindən Şuşaya dəvət olunuram – Vaqif Poeziya Günlərində iştirak etmək üçün...*

Bir anlığa yuxuda olduğumu düşünürəm. Çünki ən böyük arzular – görmək istədiklərin, etmək istədiklərin insanın yuxusuna tez-tez girir. Daim o haqda düşündüyün üçün yuxuna da sirayət edir ən böyük istəklərin. Bu da mənim ən böyük arzum idi – nə vaxtsa Şuşada olmaq...

Yox, bu arzumun yaşı Şuşa nisgili ilə yaşıd deyil. Bu istəyin 40-a yaxın yaşı var. Mən hələ uşaq olanda atam Şuşada – sanatoriyada olmuşdu. Şuşanın gözəlliklərindən, özəlliklərindən, havasından, suyundan, tarixi abidələrindən o qədər danışmışdı ki, bir könüldən min könülə vurulmuşdum Şuşaya... Şuşa bir növ mənim butam olmuşdu.

Yenicə yaşa dolmuşdum, yenicə o butamın dalınca Qərib kimi yola çıxmağa çalışırdım ki, Şuşanın yollarını duman aldı, çən aldı. Gedib çata bilmədim Şuşaya, gedib tapa bilmədim butamı. Bu nisgillə az qala 30 il yaşadım. Buna yaşamaq demək mümkündürsə... Ona görə də bu gözlənilməz zəngi əvvəlcə şirin röyalarımdan biri sandım...

Amma yox... Bu, bir yuxu deyildi. Çünki Ali Baş Komandanın rəhbərliyi ilə müzəffər Ordumuz artıq Şuşanı işğaldan azad edib. Ona görə də buna inanmaq lazım idi. Artıq bu il Şuşada milli bayramımız olan Novruz bayramı qeyd olunmuş, "Xarıbülbül" festivalı təşkil edilmiş, bu qədim diyar Azərbaycanın mədəniyyət paytaxtı elan olunmuş, yüzlərlə qonağa ev sahibliyi etmişdi. Ona görə də bu, yuxudan çox şirin bir həqiqət idi.

* * *

Bu da Şuşaya yollanacaq maşın



karvanı. Bu karvanın yolçuları Azərbaycanın tanınmış qələm, sənət və siyasət adamlarıdır. Hər kəsin üzündə böyük bir sevinc var. Çünki qeyrət qalası Şuşaya getməyə hazırlaşırıq. Hər kəs sevinclə bir-birinin əlini sıxır, təbrik edir, xoş arzularını bildirir. Bu mənzərəni mən Həcc və Kərbəla ziyarətinə gedənlərin yolasalma mərasimində çox müşahidə etmişəm. Şuşa da bizim ən müqəddəs ziyarətgahımızdır: "Ziyarətimiz qəbul olsun!" – deyirəm ürəyimdə...

Maşın karvanı yola düşür. Qeyri-ixtiyari ürəyimdən bu sözlər keçir:

*Qolların geniş aç,*
*Gəlirik, Şuşa, gəlirik.*
*Bu nisgilli ayrılıq*
*Çatdı başa gəlirik.*

*Ta qovduq yağıları,*
*O qorxaq dığaları.*
*Keçilməyən dağları,*
*Aşa-aşa gəlirik.*

*Nəhayət güləcəyik,*
*Hüsnünü görəcəyik.*
*Demişdik gələcəyik,*
*Qoşa-qoşa gəlirik.*

* * *

Bəli, vaxtilə ulu öndər Heydər Əliyev, daha sonra isə onun layiqli siyasi varisi cənab İlham Əliyev bizim Şuşaya qayıdacağımızı dəfələrlə bəyan etmişdilər. Bu gün o gündür. Biz Şuşaya qayıdırıq. Həm də "Zəfər yolu" ilə. Şuşanın alınacağına bütün dünyada şübhələr olduğu kimi, bir zamanlar bu yolun çəkiləcəyinə də şübhələr var idi. Çoxları bunun qeyri-mümkün olduğunu düşünürdü. Ancaq gerçəkləşməsi mümkünsüz görünən bir çox layihələr kimi bu layihə də uğurla həyata keçirildi. İgid oğullarımız Şuşada ermənilərin ram etdiyi kimi, mühəndislərimiz də aşılmaz dağları, keçilməz qayaları ram edərək zirvələri yol etdilər. Bu gün bu müasir və rahat yollarla cəmi 5-6 saata Bakıdan Şuşaya getmək mümkündür. İndi istənilən avtomobillə, istənilən sürətlə, istədiyin vaxt Şuşaya getmək olar. Həm də o əsrarəngiz təbiət mənzərələrini doya-doya seyr edərək...

* * *

Bələdçilərin dediyinə görə, Şuşaya aparan əvvəlki yolla gedəndə bu alınmaz qalanın möhtəşəmliyi bir o qədər də aydın görünmürmüş. Amma "Zəfər yolu"ndan baxanda Şuşa öz əzəməti ilə insanı heyran qoyur. Buradan baxanda qəhrəman, igid oğullarımızın necə çətin yollarla irəlilədiyi, necə çətinliklərlə o qayalara dırmandığı haqqında geniş təsəvvür yaranır. Böyük qartal yuvasını xatırladan bu yüksəkliklərə baxdıqda qəhrəman Azərbaycan əsgərinin gücünə, qüvvəsinə, cəsarətinə, qəhrəmanlığına heyran qalırsan.

* * *

Şuşa bizi gülərüzlə qarşıladı... Mən bunu hiss etdim. Şəhər, sanki gülümsəyirdi, sevinirdi, həyəcanlanırdı. Çünki doğmaları gəlmişdi, əzizləri ilə görüşmüşdü. O gün Günəş də, sanki daha yaxşı işıqlandırırdı Şuşanı. Bu göylər qızı ağacların, kolların, güllərin, çiçəklərin gözəlliyinə gözəllik qatmağa çalışırdı, sanki.

Az-çox səliqəyə salınan, ancaq Birinci Qarabağ savaşında güllələrdən, tank, top mərmilərindən "nəsibini alan", "yaralanan" binalar da Günəşin gur şüaları altında gülümsəyirdi... İkinci Qarabağ müharibəsi zamanı Gəncəyə atılan top mərmisi ilə dağıdılan yaşayış binasında yaralanan, ancaq xoş bir təsadüf nəticəsində sağ qalan balaca oğlanın qan içində, yara içində gülümsəməsinə bənzəyirdi bu binaların təbəssümü. Ağrılı olduğu qədər şirin idi bu binaların gülümsəməsi. Onların yarasını oxşamaq, tumarlamaq qədər əzablı və əziz heç nə ola bilməz. Düşünəndə ki, bu binalar tank, top atəşinə tutulanda yaralananda neçə-neçə insan həlak olub, xəsarət alıb, şikəst olub, insanı dəhşət bürüyür. 30 il keçməsinə baxmayaraq, ayağını basdığın yerdə əzizlərimizdən



kiminsə qurumuş qanı olar deyə ehtiyatlanırsan... Ağlamaq istəyirsən, ancaq yenicə kiriyən Şuşa da kövrələr deyə dözürsən...

* * *

Qapılar... Şuşada ən ağıllı mənzərə qapı mənzərələridir... Bir tayı qırıq taxta qapılar... Az qala otuz ildir, qıfılı açar görməyən pas basmış dəmir qapılar... Ancaq çərçivəsi qalan boş qapılar... Damı içinə uçan evlərin əksəriyyətində qapılar hələ də dözüb, dayanır. Şuşada həyat evlərinin giriş qapıları, darvazaları bu mənada, çox dözümlü çıxıb. Bu qapılar yazıq-yazıq, qəmli-qəmli baxır əzizlərinin üzünə...

Yıxılmayan, ayaqda durmağı bacaran bu qapılar, sanki sahiblərinin nə vaxtsa gələcəyini bilirmişlər. Ona



görə dözüblər, ona görə dayanıblar ki, sahibləri onları görüb yerləyeksan olan evlərini tanısınlar. Bu mənada, Şuşanın bələdçiləridir bu qapılar. Artıq hər bir qapının yanında yazılan "kodlaşdırılmış adlar" – rəqəmlər bu evin kimə aid olduğunu dəqiq ifadə edir. Deməli, qapılar öz missiyalarını müvəffəqiyyətlə yerinə yetiriblər. Artıq hər bir şuşalı öz qapısının köməyi ilə öz astanasını, öz evini, öz həyətini tapıb. Qalır bu xarabalıqların yerində yeni evlər tikmək, kol-kos basmış həyət-bacada yeni bağlar salmaq. Ancaq qapılar yenə də öz yerlərində qalsa, yaxşı olar... İşğal tarixinin şahidləri kimi...

* * *

Şuşa həm də abidələr şəhəridir... Bu qədim şəhərin qədim abidələri onun tarixi haqqında çox söz deyir. Qədim bazar, karvansara, Şuşa qalası, Pənah xanın sarayı, Natəvanın evi və bu kimi abidələr Şuşanın qədim və şanlı tarixindən xəbər verir. Şəhərin on yeddi məhəlləsi, hər məhəllənin öz məscidi, öz bulağı olub. Təəssüf ki, o məscidlərdən bir neçəsi, o bulaqlardan çox azı erməni vəhşiliyindən "yaralı" çıxa bilib. Qalanı isə şəhid düşüb, məhv olub, yerləyeksan edilib.

Yuxarı və Aşağı Gövhər ağa məscidlərində olduq. Bir neçə məscidinsə böyük ürəkağrısı ilə ancaq qalıqlarına baxa bildik. Bir müsəlman və azərbaycanlı olaraq bu mənzərələri müşahidə etmək çox çətindir, ağrılıdır. Ermənilərin məscidlərə qənim kəsilməsi onların dini mənsubiyyəti ilə bağlıdır. Bunu anlamaq çox da çətin deyil. Ancaq həyat mənbəyi olan bulaqların ermənilər tərəfindən nə üçün bu cür dağıdıldığını anlamaq mümkün deyil. Deməli, vəhşilik, vandallıq bu millətin genində, qanındadır.

* * *

Cıdır düzü Şuşanın baş meydanı kimi əsrlərdir, ad qazanıb. Şuşaya gələn hər kəsin mütləq üz tutduğu məkanlardan biridir bu meydan. Artıq Qarabağ atlarının yenidən çapıldığı, milli musiqimizin təkrar səsləndiyi, Azərbaycan şeirinin bir




daha oxunduğu meydandır Cıdır düzü. Bu meydan həm də 44 günlük Vətən müharibəsində qəhrəmanlıq tariximizə şanlı səhifələr yazılan yerdir. Azərbaycan Ordusunun qorxmaz, cəsur əsgərləri Şuşaya məhz bu ərazidən, daha doğrusu, buradakı sıldırım qayalardan qalxaraq daxil olublar – canları, qanları bahasına...

Bəli, Cıdır düzü bir qəhrəmanlıq meydanıdır. Bu, dünən də, belə olub, bu gün də elədir. Dünən igid ər oğullar bu meydanda qol güləşdirib, at çapıb, qılınc oynadıb, igidlik göstərərək ad qazanmışdılar. Bu gün də qeyrətli, cəsarətli, qorxmaz, igid oğullarımız ən yüksək adı məhz bu meydanda aldılar – qan tökərək, can alaraq, Şuşanı xilas edərək...

Cıdır düzünün uçurumla bitən sərhədinə yaxınlaşıram. Buradan nəinki yuxarı çıxmaq, aşağı baxmaq belə, vahiməlidir. İgid, mərd oğullarımızın ağır silahlarla birgə bu qayalarla üzüyuxarı qalxdığını, həm də döyüşə-döyüşə qalxdığını düşündükcə: "Bu Vətənin çörəyi sizlərə halal olsun!" – deyə düşünürəm.

* * *

Bu da sözünün işığına yığışdığımız Molla Pənah Vaqifin möhtəşəm məqbərəsi. Cıdır düzündən azca aşağıda, Şuşanın ən yüksək nöqtəsində Günəşin gur şüaları altında çıraq kimi yanan bu abidə düşmənə əsl gözdağıdır. Ölkə Prezidenti cənab İlham Əliyevin diqqət və qayğısı ilə yenidən bərpa olunan və Vaqif Poeziya Günləri ərəfəsində açılışı olan bu abidə ən azı Cıdır düzü qədər dəyərlidir bizim üçün. Şuşanın simvollarından sayılan bu memarlıq incisinə tamaşa etmək insana qürur, fəxarət bəxş edir. Bu abidə alınmaz qalamız olan Şuşanın, bu məqbərədə uyuyan dahi söz ustası Vaqif isə ədəbiyyatımızın incisidir. Bu böyük sənətkarın söz xəzinəsi tükənməzdir... O xəzinədən hər kəsə pay düşüb, hər birimiz onun poeziyasından bəhrələnmişik. Vaqif Poeziya Günləri çərçivəsində də bunu hər kəs etiraf etdi. Edilən çıxışlar, deyilən şeirlər, sanki Vaqif poeziyasından od götürmüşdü, ona görə belə odlu-alovlu idi.

* * *

Şuşa gecələri... Qonağı olduğumuz "Xarıbülbül" otelinin ikinci mərtəbəsindən bu şəhəri, onun əsrarəngiz gözəlliklərini saatlarla seyr etməkdən gözəl heç nə ola bilməz. Günboyu şəhəri məhəllə-məhəllə, küçə-küçə, ev-ev gəzməyin yorğunluğu məni məğlub etməyə çalışır, hərdən göz qapaqlarımı ağırlaşdırır. Daha iri açıram gözlərimi. Şuşanı daha çox görmək, onun gözəlliklərini daha çox seyr etmək, daha çox yaddaşıma yazmaq üçün kirpik çalmağı belə, vaxt itkisi hesab edirəm.

Gəlmədiyim, görmədiyim Şuşanı əvvəllər, heç olmasa, yuxuda görməyə, yuxuda gəzməyə çalışırdım. Bu səadəti, heç olmasa, yuxularda yaşamağın özü də gözəl idi o vaxtlar... Amma Şuşada vəziyyət tamamilə fərqli idi. Şuşada olduğum müddətdə yatmaqdan qorxurdum... Bu gerçəkliyin yuxuya çevriləcəyindən qorxurdum. Qorxurdum ki, Şuşalı günlərim, saatlarım, anlarım birdən yuxuya çevrilər... Bundan çox qorxurdum...

* * *

Şuşaya səfərimizin ilk günü nahar edirdik... Bizimlə birgə gələn ziyalılardan biri, 60-70 yaşlı bir şuşalı ilə eyni masada əyləşmişdik. O, yeməkxananın pəncərəsindən tez-tez çölə boylanır, narahat şəkildə yerində qurcalanırdı. Birdən mənə tərəf dönüb dedi: "Mənə bir yumruq vura bilərsənmi?" Təəccübləndim. Maraqla rəngi sapsarı saralan o insanın üzünə baxdım. O, təəccübləndiyimi görüb dedi: "Bilirsənmi, mən az qala 30 il bu yerlərin həsrəti ilə yaşamışam. Ona görə məni vurmanı istəyirəm ki, bunun bir yuxu olmadığını anlayım".

Sonra o göz yaşlarına hakim ola bilmədi, ağladı. Mənim də gözüm doldu. Anladım ki, Şuşa ilə bağlı bu qeyri-adi hissləri, bu duyğuları, bu həsrəti, bu nisgili mənim kimi bütün Azərbaycan xalqı yaşayıb...

* * *

Ayrılırıq Şuşadan... Hamı hüznlüdür... Heç kim buradan ayrılmaq istəmir. Hər kəs avtomobilin əvvəlcə yan pəncərəsindən görə bildiyi qədər, daha sonra isə arxa pəncərəsindən Şuşa gözdən itənədək boylanır. Nəhayət, sıx meşələr Şuşanı görünməz edir...

Eybi yox... Biz yenə gələcəyik... Şuşamızla yenidən görüşəcəyik... Artıq bunun üçün heç bir maneə yoxdur...

* * *

Yolboyu düşünürəm: "Şükürlər olsun, sənə, İlahi! Bu üçgünlük səfər, həqiqətən də, yaşanmış bir gerçəkmiş, yuxu deyilmiş..."

**Qafar QƏRİB**
***"Nuh yurdu" qəzetinin redaktoru***

*Təhsil millətin gələcəyidir*

# Uğurlu gələcəyə gedən yolun sevinci

***Ölkəmizdə, eləcə də onun ayrılmaz hissəsi olan muxtar respublikamızda təhsilə göstərilən diqqət onun dinamik inkişafını təmin etməklə yanaşı, həm də gənclərimizin gələcək uğurlarının ən gözəl təminatçısıdır. Yurdumuzun bütün yaşayış məntəqələrində gənclərin inkişafı üçün təhsil sisteminin dövrün tələblərinə uyğun qurulması, formalaşması yüksək təhsil strategiyasının uğurlu inkişafından xəbər verir. Belə ki, lazımi avadanlıqlarla təchiz edilmiş yaraşıqlı məktəb binalarında ən müasir tədris resurslarının, informasiya və kommunikasiya texnologiyalarının istifadəyə verilməsi, o cümlədən ayrı-ayrı sahələr və fənlər üzrə yeni standartların tətbiq olunması ilbəil artan uğurlarla, ölkəmizə müsbət nəticələr qazandırmaqda davam edir. Bu mənada, bu il də məzunlarımızın əldə etdiyi uğurlar xeyli sevindiricidir. Aldığımız məlumata görə, Babək rayonu üzrə 6 nəfər məktəbli 600 baldan yuxarı nəticə göstərməklə tələbə adını qazanaraq ən ülvi arzularını gerçəkləşdiriblər. Biz də öz uğurları ilə seçilən həmin gənclərin bir neçəsi ilə həmsöhbət olub, onları oxucularımızla tanış etmək istədik.***

İlk həmsöhbətimiz ikinci ixtisas qrupu üzrə keçirilən qəbul imtahanlarında 658 bal toplamaqla rayonun ən yüksək nəticə qazanan məzunu ***Cəfər Səfərli*** oldu. Yarımca kəndində zəhmətkeş bir ailədə dünyaya göz açan Cəfər deyir ki, yüksək nəticə əldə edib, tələbə adını qazandıqdan sonra çəkdiyin zəhmətə görə hədsiz sevinirsən. Hər dəfə valideynlərinin, müəllimlərinin timsalındakı sevinci gördükcə sənin xoşbəxtliyin daha da artır. Zəhmət çəkmədən, gecəni gündüzə qatmadan uğur qazanmaq mümkün deyil. Bəziləri yüksək nəticəni şansa, bəziləri imtahanların sadə təşkil edilməsinə bağlayır, amma mən bu fikirlərin heç biri ilə razılaşmıram. Ona görə ki, 11 ildir, təhsil aldığım məktəbin nümunəvi şagird olmağa, hər zaman rayonumuzun, şəhərimizin adını uca tutmağa çalışmışam. Hələ məktəbdə oxuduğum vaxtlardan, 9-cu sinifdən etibarən fənn olimpiadalarına qatılır, müsabiqələrdə iştirak edirdim, tək məqsədim isə birincilik qazanmaq idi. Gələcək məqsədim də Vətənimə, xalqıma xidmət etməkdir. Bu yolda səylə, səbirlə, inamla çalışıram. İxtisas seçimimdə də topladığım nəticəyə uyğun olaraq Azərbaycan Dövlət İqtisad Universitetinin Maliyyə ixtisasını seçdim. Bakalavr təhsilimi başa vurduqdan sonra xaricdə magistr pilləsində təhsilimi davam etdirməyi düşünürəm.



Son olaraq qeyd edə bilərəm ki, hansı sahə olursa-olsun, ilk növbədə, insanın qarşısında aydın məqsədi olmalıdır.

Növbəti həmsöhbətimiz də Yarımca kənd tam orta məktəbinin şagirdi ***Bəsirə Cəfərova***dır. Qəbul imtahanında 648 bal toplayan qəhrəmanımız həm də məktəbi "Qızıl" nişanla bitirib. İnkişaf və tərəqqi əvəzsiz bir nemətdir, – deyən müsahibimiz qeyd edir ki, abituriyentlər qəbul imtahanlarına hazırlaşmağa bəzilərinin düşündüyünün əksinə, doqquzuncu, onuncu sinifdən yox, ibtidai sinfə qədəm qoyduqları ilk andan başlamalı, onun məsuliyyətini dərk etməlidir. Öz həyatımda qazandığım təcrübə göstərdi ki, aşağı siniflərdə əldə etdiyim biliklər qəbul imtahanlarına hazırlaşdığım bu 2 il ərzində mənə böyük kömək göstərdi. Lap kiçik yaşlarımdan dəqiq fənlərə və təbiət elmlərinə böyük marağım olduğu üçün olimpiadalarda riyaziyyat və coğrafiya fənləri üzrə iştirak edərək dəfələrlə müxtəlif yerlərin qalibi olmuşam. Elə bu səbəbə görə həm müəllimlərim, həm də valideynlərim qəbul imtahanında məndən yüksək nəticə gözləyirdilər. Topladığım nəticə ətrafımdakıları, müəllimlərimi, ailə üzvlərimi qane etsə də, mən özümdən daha yüksək nəticə gözləyirdim. Bütün tələbələr etiraf edər ki, qəbul imtahanının stresi insana bildiyini də unutdurur. Hətta bəzən elə olur ki, düzgün nəticələri belə, kodlaşdırma prosesində yanlış qeyd edirsən. Bunun üçün imtahanda özünənəzarəti və diqqəti əldən buraxmamaq lazımdır, əks halda, illərin zəhmətini 2 saatın içində puç edə bilərsən. Azərbaycan Dövlət İqtisad Universitetinin İqtisadiyyat ixtisasında təhsil alacağam. Hər bir gənc kimi mənim də məqsədim təhsilimi uğurla başa vurduqdan sonra Vətənimin peşəkar, savadlı insanları ilə burada çiyin-çiyinə çalışmaq, gələcəyin istedadlı gənci kimi formalaşmaqdır. Bunun üçün səbirlə, inamla çalışmışam və inanıram ki, bundan sonra da bu yolda səy göstərib məqsədlərimin hamısına çatacağam. Düşünürəm ki, məqsədin güclü olduğu yerdə insan bütün arzularını reallaşdıra bilər. Təki inamla addımlamağı bacarasan.



Bu dünyada bir müəllim üçün şagirdlərinin uğurundan daha şirin nə ola bilər ki, həyatda? İllərinin zəhmətini şagirdinin yüksək nəticəsində görmək kim bilir necə fəxarət dolu ülvi bir hissdir onun üçün. Hər iki həmsöhbətimin təhsil aldığı Yarımca kənd tam orta məktəbinin direktoru Billurə İbrahimova da belə bəxtəvər müəllimlərdəndir. Billurə müəllimə qeyd edir ki, məktəbdə təhsil alan hər bir şagird müəllimin barverən ağacına bənzəyir. Sözsüz ki, şagirdlərin içərisində çalışqanı da olur, dəcəli də, şıltağı da. Onları gələcəyin ideal gənci kimi formalaşdırmaq, həyatın enişli-yoxuşlu yollarının gətirdiyi çətinliklərdə onlara həmdəm olmaq hər bir müəllimin şərəf borcudur. Bu gün mən çox şadam, sevincliyəm ki, ağaclarım bar gətirib. Hər iki tələbəm – Cəfərim, Bəsirəm öz nəticələri ilə həm ailələrinə, həm müəllimlərinə başucalığı qazandırıb, xoşbəxtlik bəxş edib. Hələ aşağı siniflərdə oxuduqları vaxtlarda öz uğurları ilə məktəbin nümunəvi şagirdləri idilər. Məktəbdə nə zaman tədbir, yaxud da müsabiqə olsa, hər ikisi – Cəfər də, Bəsirə də mütləq iştirak edər, yaxşı yerlərin qalibi olardılar. Elmə göstərdikləri böyük maraqla, qarşılarına qoyduqları sarsılmaz məqsədlə onlar çıxdıqları hər yolda yüksək nəticə əldə edərək məktəbi "Gümüş" və "Qızıl" nişanlarla bitirdilər. Bu gün məktəbimizdə onların uğurlu ardıcılları da kifayət qədərdir. İnanıram ki, onlar da öz nəticələri ilə valideynlərinin, müəllimlərinin başını uca edəcək, Vətənə layiqli şəxsiyyət olacaqlar. Allahdan arzu edirəm ki, həyatın heç bir çətinliyi şagirdlərimizi yormasın, usandırmasın, düşdükləri çətinliklərin məngənəsindən daim alnıaçıq, üzüağ çıxsınlar.

Şıxmahmud kənd sakini ***Mənsur Qafarlı*** da qəbul imtahanlarında 634 bal nəticə göstərməklə adını yüksək bal toplayan tələbələrin sırasına daxil edib. Müsahibimiz deyir ki, aşağı siniflərdə oxuduğum müddətdə sınaq imtahanlarında əldə etdiyim nəticə hər dəfə ailəmizin sevincinə səbəb olurdu. Lakin qəbul imtahanı dedikdə insanın həyəcanı bir qədər artır. Qarşıma 600 balı keçmək üçün məqsəd qoymuşdum, son 2 ildə, demək olar ki, daha gərgin rejimdə dərs oxuyur və çalışırdım. Müəllimlərim də məndən 600 baldan yuxarı nəticə gözləyirdi. Qazandığım nəticəmlə həm ailəmi, müəllimlərimi, həm də bütün yaxınlarımı sevindirdim. Azərbaycan Dövlət İqtisad Universitetinin Maliyyə ixtisasının tələbəsi adını daşıyıram. Məqsədim bakalavr təhsilimi bitirdikdən sonra xaricdə magistratura təhsilimi davam etdirməkdir. Bir məqamı da diqqətə çatdırmaq istəyirəm ki, abituriyentin məsuliyyət və qabiliyyətindən də çox şey asılıdır. Bəzi tələbələr var ki, mövzunu bir dəfə oxumaqla qavrayır, bəziləri də həmin mövzunu bir neçə dəfə oxumaqla mənimsəyə bilir. Burada istedad artıq özünü aydın büruzə verir. Təbii ki, gərgin dərs rejimində çalışmaq da faydalı deyil. Dərslə yanaşı, istirahət də lazımdır. Bu mənada, ali məktəbə qəbul olmaq istəyənlər bilməlidir ki, öncə orta məktəbdə keçirilən mövzuları yüksək səviyyədə mənimsəmək, seçəcəyin ixtisas üzrə fənləri dərindən öyrənmək vacib şərtdir. Hər halda orta məktəbdə dərslərə laqeyd yanaşan biri, fikrimcə, istedadlı, yaxud da prestijli ixtisasa qəbul ola bilməz. Bu yol çətin, zəhmət tələb edən bir yoldur. Kitab sevgisi, erudisiyalılıq, tələbkeşlik və məsuliyyət bu çətinliyi asanlaşdıraraq səni məqsədinə daha tez çatdırır. Təki qarşına məqsəd qoyub onun uğrunda çalışasan.



622 bal nəticə göstərməklə uşaqlıq arzusu olan müəllimlik ixtisasına qəbul olan Zeynəddin kənd tam orta məktəbinin şagirdi ***Qumral Qasımova*** deyir ki, həyat dünya qapısından içəriyə atılan addımla başlayan bir yolçuluqdur. Kimisi bu yolu mənasız, hədər verərək yıxıla-qalxa sona çatdırır. Kimisi də bütün həyatı boyu çalışmağı ideala çevirərək, özünü daim inkişaf etdirmək, öz üfüqlərini genişləndirmək üçün dayanmadan səy göstərir. Bizi uğura aparan yollar nə qədər çətin olursa-olsun, qarşımıza qoyduğumuz məqsədlərlə çətinliklərin öhdəsindən gəlib nailiyyət qazanmaq mümkündür. Hələ uşaq vaxtlarından dil öyrənməyə həvəsim olub. Məktəbdə də ən sevdiyim fənn ingilis dili idi. Bu minvalla oxuduğum müddətdə özümü bu fənn üzrə inkişaf etdirərək ixtisas seçimimdə də İngilis dili müəllimliyi ixtisasını seçdim. Ətrafımdakı insanlar, ailə üzvlərim, hətta müəllimlərim belə, mənim Hüquqşünaslıq ixtisasını seçəcəyimi düşünürdü. Çünki nəticəm qarşıma geniş perspektivlər açmışdı. Lakin hər insanın bir arzusu, bir amalı var. Müəllimlik sənətinə olan ülvi marağım əlimdən yapışıb bu şərəfli işin ardınca apardı. Seçimimdən peşman deyiləm, gələcəkdə bu sahənin elmli, intellektli, savadlı müəllimlərindən biri olacağıma bütün qəlbimlə inanır, bu yolda səy göstərirəm.



Son olaraq bir şeyi də diqqətə çatdırım ki, yüksək nəticə qazanmaq nə şans, nə də təsadüf məsələsidir. Ancaq çalışmaqla, inanmaqla yüksək nailiyyət qazanmaq mümkündür. Hədəfimə çatdığım, valideynlərimin, müəllimlərimin əziyyətini hədər verməditim üçün sevincliyəm, xoşbəxtəm.

*Xoşbəxt və inamlı gələcəyə gedən yolda elm insan ömrünə işıqsaçan mayaka bənzəyir. Bu yolun uğurlu nəticələri həmin elmin sirlərini mənimsəyib, həyatının ayrılmaz bir parçası halına gətirdikdə qarşına geniş imkanlar açır. Bu çətin yolda daim çalışmaq, zəhmət təri tökmək isə gələcək xoş günlərin ən gözəl təminatçısıdır. Yuxarıda adını çəkdiyimiz, uğurları ilə yaxından tanış olduğumuz gənc fidanlarımıza da həyat məktəbinin keşməkeşli yollarında müvəffəqiyyət arzulayır, uğurlarının daimi olmasını diləyirik.*

✍ **Məcid RƏŞADƏTOĞLU**

## Naxçıvan Muxtar Respublikası üzrə 2021-ci ilin avqust ayında verilən elektrik enerjisinin miqdarı, satışdan daxil olan vəsait və ödənilmə faizi haqqında məlumat

| S/№ | Şəhər və rayonlar | Enerjinin miqdarı (min kvt/saat) | Enerjinin dəyəri (min manat) | Toplanan vəsait (min manat) | Ödənilmə faizi |
|---|---|---|---|---|---|
| 1. | Naxçıvan şəhəri | 6005 | 444,5 | 444,5 | 100,0 |
| 2. | Şərur rayonu | 2233 | 156,8 | 156,8 | 100,0 |
| 3. | Babək rayonu | 2738 | 203,8 | 203,8 | 100,0 |
| 4. | Ordubad rayonu | 1328 | 96,2 | 96,2 | 100,0 |
| 5. | Culfa rayonu | 1606 | 122,7 | 122,7 | 100,0 |
| 6. | Kəngərli rayonu | 963 | 69,9 | 69,9 | 100,0 |
| 7. | Şahbuz rayonu | 453 | 32,3 | 32,3 | 100,0 |
| 8. | Sədərək rayonu | 331 | 24,4 | 24,4 | 100,0 |
| 9. | Muxtar respublikanın müəssisə və təşkilatları | 28497 | 2564,7 | 2561,4 | 99,9 |
| **Naxçıvan Muxtar Respublikası üzrə cəmi:** | | **44154** | **3715,3** | **3712,0** | **99,9** |

**Qeyd:** Avqust ayında texniki itki nəzərə alınmaqla verilən 44 milyon 154 min kilovat-saat elektrik enerjisinin dəyəri 3 milyon 715 min 300 manat olmuş, cəmi 3 milyon 712 min manat vəsait toplanmışdır ki, bu da istifadə olunan enerjinin dəyərinin 99,9 faizini təşkil edir.

## Naxçıvan Muxtar Respublikası üzrə 2021-ci ilin avqust ayında verilən təbii qazın həcmi, satışdan daxil olan vəsait və ödənilmə faizi haqqında məlumat

| S/№ | Şəhər və rayonlar | Təbii qazın həcmi (kubmetr) | Təbii qazın dəyəri (manat) | Daxil olan vəsait (manat) | Ödənilmə faizi |
|---|---|---|---|---|---|
| 1. | Şərur rayonu | 830906 | 124475 | 124489 | 100,0 |
| 2. | Babək rayonu | 930640 | 132460 | 132472 | 100,0 |
| 3. | Ordubad rayonu | 453553 | 67023 | 67028 | 100,0 |
| 4. | Culfa rayonu | 372485 | 59615 | 59618 | 100,0 |
| 5. | Naxçıvan şəhəri | 880280 | 127376 | 127381 | 100,0 |
| 6. | Kəngərli rayonu | 321037 | 50448 | 50449 | 100,0 |
| 7. | Şahbuz rayonu | 270955 | 41121 | 41121 | 100,0 |
| 8. | Sədərək rayonu | 93687 | 14912 | 14912 | 100,0 |
| 9. | Muxtar respublikanın müəssisə və təşkilatları | 10510773 | 1499266 | 1482235 | 98,9 |
| **Naxçıvan Muxtar Respublikası üzrə cəmi:** | | **14664316** | **2116696** | **2099705** | **99,2** |

***İtmişdir***

Tağıyev Elnur Zülfüqar oğlunun adına olan 0900286412 nömrəli VÖEN itdiyindən etibarsız sayılır.

***

Şahbuz rayonunun Kükü kəndində yaşamış Ələkbərov Məhəmmədəli Oruc oğlunun adına verilmiş JN-198A, JN-198B və JN-198C inventar nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə"lər itdiyindən etibarsız sayılır.

***

Naxçıvan şəhəri, Çənlibel məhəlləsi, bina 25, ev 44-də yaşamış Əliyeva Südabə Həbib qızının adına olan 8448 inventar nömrəli texniki pasport və 03/137 nömrəli qeydiyyat vəsiqəsi itdiyindən etibarsız sayılır.


**ŞƏRQ *qapısı***

**Baş redaktor:**
**MEHRİBAN SULTANOVA**

**Ünvan:** ***AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.***
***Telefonlar: Məsul katib: 545-62-47***
***Şöbələr: 545-81-44, 545-51-18***
***Müxbirlər: 545-75-21, Faks: 544-52-52***
**E-mail:** *serqqapisi@nakhchivan.az*

**Qeydiyyat №: 575**

*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

***Nömrəyə məsul:*** **Ramiyyə Əkbərova**

*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*

**Tiraj: 1500. Sifariş № 711**